

# XALQIN, MİLLƏTİN GÜVƏNLİ OĞLU OLMAQ BÖYÜK ŞƏRƏFDİR

*Səməndər MƏMMƏDOV*
*şair-publisist, Prezident təqaüdçüsü*

**Bu sözlər xalq şairi böyük Zəlimxan Yaquba məxsusdur. Və bu sözləri böyük şair Ulu Öndərə həsr etdiyi "Əbədiyyət dastanı" poemasında qələmə alıb. Biz həmişə Azərbaycanı azad və müstəqil görmək istəmişik. Və bügünkü Azərbaycanın da baş memarı Ulu Öndər Heydər Əliyevdir. Başqa sözlə demiş olsaq, müstəqil Azərbaycan Ulu Öndərin şah əsəridir. Və bu şah əsəri Ulu Öndərin davamçısı prezident İlham Əliyev göz bəbəyi kimi qoruyur, ölkəmizi siyasi, iqtisadi və hərbi cəhətdən ən yüksək inkişaf mərhələsinə çatdırıb.**

Bu gün Azərbaycanın hansı guşəsinə, hansı rayonuna, hansı qəsəbəsinə qədəm qoysan, orda möhtəşəm abadlıq və quruculuq işlərinin şahidi olarsan. Xalq şairi Məmməd Rahimin bir fikri yadıma düşür: "Göygölü, Qubanı görməmisənsə, deməli, Azərbaycanı yaxşı tanımamısan, gəzməmisən...".

Bayaq dedik, bu gün Azərbaycanın bütün regionlarında elə bir quruculuq işləri görülüb ki, bu işlərə baxan adam qısa zaman kəsiyində bu qədər abadlığın həyata keçirilməsinə təəccüblənə bilər. Amma təəccüblənmək lazım deyil, sevinmək lazımdı. İnsanların yaşayış tərzinə, gözəl həyatına, sosial rifahına baxıb insan sevinməlidir. Azərbaycanda yol infrastrukturu, məktəblər, xəstəxanalar, mədəniyyət mərkəzləri və sosial obyektlər... müasir memarlıq üslubunda inşa edilib və çox möhtəşəm görünür. Əvvəllər mən Gürcüstana gedəndə yolda çox çətinlik çəkirdim. Amma şükür Allaha, indi yollarımız şüşə kimidir. 4-5 saata rahat avtomoibillə Qırmızı Körpü sərhəd-keçid məntəqəsinə gedib çatmaq olur. Bax, bütün bunlar Azərbaycan prezidenti İlham Əliyevin möhtəşəm işləridir.

Cənab prezident həmişə xalqını, millətini sevindirib. Onun ən ağır günündə yanında olub. Heç yadımdan çıxmır, Ramil Səfərovu Macarıstandan heç kimin xəbəri olmadan Azərbaycana gətirtdi və onu azad elədi. Xalq cənab prezidenti onda daha çox sevdi. Mübariz İbrahimovun cənazəsinin alınması və Azərbaycana gətirilməsi də milyonlarla insanın ürəyincə oldu. Cənab prezident bir daha sübut elədi ki, o, hər bir azərbaycanlının doğmasıdır, əzizidir və sevimlisidir.

Bu gün ölkəmizdə çox möhtəşəm islahatlar və demokratik proseslər həyata keçirilir. Bu prosesdə xalqa xidmət etməyən, vəzifəsindən sui-istifadə edən, öz şəxsi mənafeyini hər şeydən üstün tutan, sanki vəzifədən ikiəlli yapışan bəzi cinayətkar elementlər ifşa edilir və məsuliyyətə cəlb olunurlar.

Son vaxtlar 4 icra başçısının cinayət başında yaxalanması bir daha onu təsdiq edir ki, prezident İlham Əliyev kimliyindən asılı olmayaraq, xalqa, dövlətə xəyanət edənləri heç vaxt bağışlamır. Çünki cənab prezident hər hansı bir şəxsi yüksək vəzifəyə təyin edərkən dəfələrlə bəyan edib ki, gedin, təmiz işləyin, xalqa xidmət edin. Bax, belələri də prezidentin tövsiyəsindən nəticə çıxarmayıb əyri yola gedəndə vəzifəsindən azad olunur və cinayət məsuliyyətinə cəlb edilirlər.

Cənab prezidentin bu xətti, bu addımı Azərbaycan xalqı tərəfindən, eləcə də böyük ziyalı təbəqəsi tərəfindən dəstəklənir və müdafiə olunur.

Azərbaycanda aparılan ictimai-siyasi, iqtisadi, hüquqi və kadr islahatlarının növbəti mərhələsi həyata keçirildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Milli Məclisin razılığı ilə Azərbaycan Respublikasının yeni Baş Prokurorunu təyin etmişdir. Bu posta Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisinin namizədliyinin verilməsi Azərbaycanda korrupsiyaya qarşı aparılan ciddi mübarizənin təzahürüdür. Yeni seçilmiş Baş prokuror öz çıxışında siyasi, hüquqi islahatların, eləcə də aparılan kadr islahatlarının ölkəmizin yeni inkişaf mərhələsinə keçidinin şərtləndiyini qeyd etmişdir. Bununla yanaşı, Azərbaycan tarixində bir ilk yaşandı. Belə ki, Azərbaycan Respublikasında İcra Hakimiyyəti ilə Qanunvericilik Hakimiyyəti arasında əlaqə məhz Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyətilə əlaqələr şöbəsi tərəfindən həyata keçirildi. Bu, ölkədə aparılan siyasi islahatların dərinləşməsinə və yeni siyasi konifiqurasiyanın formalaşmasına dəlalət edir.

Dünyanın hər yerində koronavirusa qarşı mücadilə aparılır. Yəni bəşəriyyət sanki üçüncü dünya müharibəsini yaşayır.

Belə bir məqamda Azərbaycan prezidenti xalqın yanında oldu, onun təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirlərin həyata keçirilməsini tövsiyə etdi. Azərbaycanda bütün qurumlar bu bəlaya qarşı mübarizəyə səfərbər olunub. Hətta cənab prezident Bakıda möhtəşəm xəstəxananın açılışını edərkən dedi ki, burda koronavirusa yoluxan insanlar müalicə alacaqlar.

Qısa zaman kəsiyində ölkəmizə 200-dən çox süni tənəffüs aparatı gətirildi.

Bu aparatlar ağır vəziyyətdə olan xəstələrin xilas olmasında çox böyük önəmli əhəmiyyət kəsb edir. Sərt karantin rejiminin tətbiq edilməsi virusun ölkəmizdə geniş yayılmasının qarşısını əsaslı surətdə alıb. Yəni ölkəmizdə çox böyük qabaqlayıcı tədbirlər görülüb. Artıq modul tipli xəstəxanalarının tikintisinə başlanılıb.

Bütün bunlar onu deməyə əsas verir ki, bu gün ölkəmizdə prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar uğurla davam edir. Abbas Tufarqanlının aşağıdakı misraları yadıma düşür:

**Söz bir olsa, dağ oynadar yerindən,**
**El bir olsa, zərbi kərən sındırar.**

Bu gün ölkəmizdə bizim hamımızın birləşməyinə çox böyük ehtiyac var. Hətta cənab prezident bu məqsədlə müxalif partiyalara qarşı da addımlar atıb. Çünki vətənin müdafiəsi gələndə burda iqtidar-müxalifət söhbəti ola bilməz. Əgər kimsə bu birliyə qoşulmursa, o, müxalifət deyil, bu xalqın, bu vətənin, bu millətin düşmənidir.

Yazımı xalq şairi Zəlimxan Yaqubun Ulu Öndərə həsr etdiyi bu misralarıyla tamamlamaq istəyirəm:

**Yığdın gözlərinə sökülən danı,**
**Canın qeyrətisən, qeyrətin canı.**
**Qorudun müqəddəs Azərbaycanı,**
**Sıyrılmış qılıncım, cəsarətimsən.**

**İndi bu yolu xalqına, millətinə, elinə söykənən prezident İlham Əliyev davam etdirir. Xalqa söykənənsə uca dağa sığınır. Və bu uca dağ və bu möhtərəm prezident həmişə bu milləti, bu xalqı qoruyacaq. Qoy Allah da onu qorusun!**

Ədalət.- 2020.- 5 may. S. 4.